AZƏRBAYCAN 105

◆ Tarix necə varsa

Dövrünün ən aparıcı mətbu orqanlarından biri olan "Azərbaycan" qəzetinin yaranmasından 105 il keçir. Səhifələrində dərc olunan materialların dərinliyinə, əhatəliyinə, obyektivliyinə, informasiya yükünün bolluğuna görə başqa mətbu orqanlardan seçilən qəzet fəaliyyətə 105 il əvvəl - 15 sentyabr 1918-ci ildə, xalqımız və ölkəmiz üçün həlledici olan bir gündə yaranmışdı. Həmin tarix bütün azərbaycanlılar üçün müqəddəs və əzizdir. Çünki 15 sentyabr 1918-ci ildə Bakı şəhəri Qafqaz İslam Ordusu və yenicə yaradılmış doğma ordumuzun qüvvələri tərəfindən erməni-bolşevik qüvvələrindən azad edilmişdi. Həmin gün Cümhuriyyətin beşiyi olan Gəncə şəhərində "Azərbaycan" qəzeti işıq üzü görmüşdü.

Nəsillərə vətənpərvərlik və qəhrəmanlıq hissləri aşılayan qəzet

Ölkəmiz üçün belə çətin, təlatümlü, həlledici və şərəfli günlərdə fəaliyyətə başlayan "Azərbaycan" qəzeti ilk vaxtlardan həqiqət yolunu tutmuşdu. Qəzetdə dərc edilən materialların qətiyyətinə, məqsəd və amalının sadiqliyinə görə dövrünün aynasına çevrilməyi bacarmışdı. Məhz buna görə də həftədə iki dəfə işıq üzü görən mətbu orqan böyük oxucu sevgisi qazanmışdı.

"Azərbaycan" qəzeti Azərbaycan Xalq Cümhuriyyətinin rəsmi qəzeti idi. Buna görə də orada təkcə müxbir və müəllif yazıları deyil, dövlətin rəsmi materialları, sərəncam və qanunları da dərc olunurdu. Həmin günlərdə sanki bütün işıqlı cəmiyyət bu mətbuat orqanı ilə nəfəs alırdı. Maarifin, elmin hələ də yüksək olmadığı bir vaxtda sanki qəzet qaranlıqlarda bir ulduz kimi parlamışdı. "Azərbaycan" adlı o ulduzun işığı indi də parlaqdır.

Həmin illərdə qəzetin səhifələrində dərc olunan yazılar şərəfli tariximizin ayrılmaz, bölünməz və təkzibolunmaz bir parçası olduğuna görə bizim üçün çox doğma və müqəddəsdir. Müqəddəs olduğu qədər də gərəklidir. Çünki o yazılar, materiallar bizim üçün keçmişə açılan qapıdır, dünənimizə düşən işıqdır.

İki ilə yaxın fəaliyyət göstərmiş, dövrün ağrı-acısını, tarixini özündə əks etdirən müxtəlif janrlı materialları ilə oxucuların görüşünə gəlmiş "Azərbaycan" qəzetinin redaktorları müxtəlif vaxtlarda dövrünün tanınmış ziyalıları Ceyhun bəy Hacıbəyli, Şəfi bəy Rüstəmbəyli, Üzeyir bəy Hacıbəyli, Xəlil İbrahim olub. Bu işıqlı insanlar biliyi, bacarığını vətənpərvərlik hisslərinə qataraq ömrünü xalqın, dövlətin azadlığı yolunda şam kimi əridib.

"Azərbaycan" qəzeti dövrün tələbinə uyğun olaraq 1918-1920-ci illərdə ərəb qrafikalı əlifba ilə dərc edilib. Sonrakı illər zorən əlifba dəyişikliyinə görə "Azərbaycan" qəzetindəki materialları oxumaq mümkün olmayıb. Materiallar latın qrafikasına çevrilməli idi. Bunun üçün isə kifayət qədər vəsait və əski əlifbanı oxuya bilən mütəxəssislər tələb olunurdu.

Belə xeyirxah işi Azərbaycan Diplomatiya Universitetinin rəhbərliyi öz üzərinə götürdü. Universitetin təşəbbüsü və dəstəyi ilə Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin orqanı olan "Azərbaycan" qəzetinin tam külliyyatı ərəb qrafikalı əlifbadan latın əlifbasına çevrilərək nəşrə hazırlandı.

Qəzetin səhifələrini vərəqlədikcə bir əsrdən də çox yaşı olan tarix daha da əlçatan olur, daha da doğmalaşır. Sanki hərdən bu materialların içində onu qələmə alan müxbirlərin nəfəsi də duyulur, səsi də eşidilir.

Başqa mövzularla yanaşı, "Azərbaycan" qəzeti bütün dövr və zamanlar üçün vacib olan ordu quruculuğu mövzusuna da geniş yer ayırıb. Qəzetin 15 sentyabr 1918-ci il tarixli 1-ci nömrəsinin birinci səhifəsində hərbi çağırışla bağlı elan dərc olunub. *"Əsgərliyə alınacaq yaşda olan bütün müsəlmanlar, yanlarında həmişə - ilk surətdə, uyezd Əxzi-Əsgər (hərbi qulluğa çağırış) İdarəsi tərəfindən verilmiş və özlərinin əsgərlikdən azad olunduğunu göstərən bir bilet saxlamağa məcbudur. Yanlarında böylə bir bileti olmayan şəxslər əsgərlikdən boyun qaçırmış hesab olunacaq və bunlar polis tərəfindən tövqif (həbs) ediləcək".*

İlk nömrəsindən ordu quruculuğuna, ordunun düşmənlərə qarşı apardığı döyüşlərinə böyük diqqət yetirən qəzet bu ənənəsini sonra da davam etdirmişdi. "Müharibə meydanında" rubrikası ilə dərc olunan yazılar daha çox diqqəti cəlb edir. Bu yazılar müəyyən xronika xarakteri daşıyır. Qəzetin rəhbərliyi daha çox Bakının erməni-menşevik qüvvələrindən azad olunmasının tarixinə diqqət yetirir. Həmin günlərdə ordu hissələrinin apardığı döyüşlərdən və qazandığı uğurlardan bəhs edən qəzet yazırdı:

Bakı cəbhəsində, 2 sentyabr

"Vaqe olan təərrüzümüz (hücumumuz) nəticəsində düşməndən üç köy və müstəhkəm (möhkəmləndirilmiş) iki təpə zəbt etdik. İngilislər pərişan bir halda fərar etdilər. Səkkiz makinalı tüfəng (pulemyot), biri böyük iki top, pək çox cəbbaxana və araba ilə bir telemetrə iqtinam (qənimət) eylədik. İki zabit, əlli yeddi ingilis nəfəri (əsgəri) əsir aldıq".

"Azərbaycan" qəzeti yenicə yaranmış ordunun sıralarında Vətənə xidmət edən zabit və əsgərlərin cəsarətindən, hünərindən də geniş söz açıb. Yenicə ayaqüstə duran ordumuzun zabit və əsgərləri Bakı şəhərinin erməni-bolşevik qüvvələrindən azad olunmasında böyük qəhrəmanlıq göstərirdi. Hər yüksəklik, hər məhəllə, hər addım uğrunda cəsarətlə vuruşurdular, qənimət kimi xeyli silah-sursat götürürdülər. Döyüşlərin birində iki zabit və əlli yeddi əsgər əsir alınmışdı. Bütün bu məlumatlar ordumuzun gücündən, gələcək uğurlarından xəbər verirdi.

Bakı uğrunda getmiş gərgin döyüşlərdən oxucularına məlumat verən qəzetin səhifələrində daha sonra oxuyuruq: *"Qaraya (sahilə) əsgər çıxarmaq istəyən düşməni bu təşəbbüsdən mən ilə (təşəbbüsünün qarşısını almaqla), bir yelkənli qayıq içərisində bulunan əlli nəfəri itlaf (tələf) eylədik. Vaqe olan isabətlə bir gəmi Bakı istiqamətinə qaçdı və göyərtəsində duman görüldü."*

"Azərbaycan"da dərc olunmuş məlumatlar qısa olsa da, oxucuda döyüşlər haqqında geniş təəssürat oyadır. Sıralanan növbəti məlumatda oxuyuruq:

"Topçu atəşimizlə bir düşmən təyyarəsini xətti-hərbi (cəbhə xəttinə) gerisinə düşürdük".

Məlumatda Bakının azadlığı uğrunda gedən döyüşlərin gərginliyi açıq-aydın hiss olunur. Oxuculara təqdim olunan üç qısa məlumatda diqqətçəkən bir neçə maraqlı məqam var. Üç məlumatın biri quruda, biri suda, biri isə səmada gedən döyüşün qısa xronikasıdır. Demeli, bu qısa məlumatlardan oxucular öyrənirlər ki, Bakı şəhərinin azadlığı uğrunda həm havada, həm suda, həm də quruda döyüş gedib. Döyüş xəbəri olsa da, məlumatdan qan qoxusa da qürurverici mənzərədir. Azərbaycan hərbçisi, türk əsgəri ölkənin paytaxtı uğrunda yadelli qüvvələrə qarşı qorxuya meydan oxuya-oxuya vuruşur. Belə qəhrəmanlıqlar oxucunun ovqatına ovqat qatır. Ordusuna, silahlı qüvvələrinə böyük rəğbət bəsləyir. Gənclər onun sıralarında xidmət etməyə tələsirlər.

Beləcə, ordu qüvvələrinin Bakı şəhəri uğrunda apardığı gərgin mübarizə "Azərbaycan" qəzetinin səhifələrində ardıcıllıqla işıqlandırılır. Xəbərləri oxuduqca bu materiallarda ölkəmizin paytaxtını düşmənlərdən azad edən zabit və əsgərlərimizin qəhrəmanlığını, igidliyini görürük.

Qəzetdə təkcə Bakı şəhərində deyil, Qarabağda gedən döyüşlər və başqa hadisələr barədə də "Ordu qərargahından" rubrikasında operativ məlumatlar verilir. Məlumatlarda oxuyuruq:

"Qarabağda: Şuşa məntəqəsindəki köylərdən müxtəlifül-cins bir çox əslihə (silah) və bir makinalı tüfəng (pulemyot) toplanmışdır".

"Qarabağ cəbhəsində Şuşa qəsəbəsi bilamüharibə (döyüşsüz) işğal edilmişdir (ələ keçirilmişdir). Əhali qitəati-əsgərimizi (hərbi birliklərimizi) bayraqlarla qarşılamışdır".

"Qarabağda sükunət vardır. Dağlara fərar edən erməni əhali peydər-pey (bir-birinin ardınca) köylərinə övdət etməkdə və təslimi-silah eyləməkdədirlər".

Ordu quruculuğuna daim böyük diqqət yetirən qəzet səhifələrində rəsmi, qısa xəbərlərlə bərabər maraqlı müəllif yazılarını da böyük səxavətlə dərc edirdi. Qəzetin 21 oktyabr 1918-ci il 18-ci nömrəsində dərc olunmuş "Əsgərlərə" sərlövhəli yazı ordu sıralarında vuruşan hərbçilərə bir növ müraciətdir, gərəkli məsləhət və tövsiyələrdir. Yəni səhifələrində ordu quruculuğunu işıqlandıran redaksiya heyəti, eyni zamanda zabit və əsgərlərə mənəvi dəstək durur, onlara dəyərli məsləhət verir. Əsgərlərə ünvanlanan məsləhət dolu müraciət bu dəyərli sözlərlə başlayır: *"Dini, vətəni və ümum müsəlmanların səlamati üçün əsgər olacaqlar haqqında, istər sahibi-dövlət, istər kasıb olsun, yazılmış və müsəlmanların qabaqda keçmiş ataları, cədləri tərəfindən icra edilmiş nəsihəti-kubralar (ən böyük nəsihətlər) şunlardır".* Bundan sonra əsgərlərə dəyərli məsləhətlər ünvanlanır. Bu məsləhətləri oxuduqca babalarımızın necə də sülhsevər, necə də böyük ürəyə sahib olduqlarını dönə-dönə görürük: *"...Cihad ciddən afzəldir (həqiqətən çox fəzilətlidir). Cihadın nəticəsi iki eyiliyin biridir: ya mühafizeyi-mövcudiyyət və fəthi zəfərə nail olmaq; ya mərtebeyi-cəlileyi-şəhadəti ehraz etmək (şəhidliyin ən uca mövqeyini qazanmaq). Bunun üçün əsgər ol; əsgərlik səni qorxutmasın, ancaq sevinə-sevinə get, sözündə dur; qədr (qəddarlıq) etmə, burun-qulaq kəsmə, göz oyma, piri-faniyi (qocaları) öldürmə, qadını öldürmə, məvaşiyi (südlük, yaxud ətlik heyvanları) ifna (tələf) etmə, ancaq zərurət üçün kəs, əkl et (ye), xurma ağacını yaxma, şəhər xarab etmə, mali-qənaimə (qənimət malına) xəyanət etmə, əmri-hərbdə (müharibə əsnasında) müsəlmanlar düşmənlərin kötülük işləmələri üzündən mənsur (qalib) və müzəffər olarlar. Ey əsgər, sən də kötülükdən saqın, mütəqqi (Allahdan qorxan) ol, kötüyü işləmədə düşmənlə müsavi olar isən, düşmənlər bizə faiq (üstün) olarlar..."*

Əsgərlərə ünvanlanmış bu müraciət dəyərli sözlərlə, ağıllı məsləhətlərlə doludur. Müraciətin mətnini oxuyanda babalarımızın mənəvi dünyasından, işıqlı düşüncələrindən qürur duyuruq. Ona görə qürur duyuruq ki, onlar düşmənlərdən fərqli olaraq yeni yaranmış ordunun əsgərinə vur, öldür demir. Sülhpərvər babalarımız əsgərinə deyir ki, qocanı öldürmə, uşağa silah qaldırma, qulaq kəsmə, göz oyma. Çünki bütün bunlar əsgərə, zabitə, ümumiyyətlə, insanlığa başucalığı gətirməyən hərəkətlərdir. Əsgərə ünvanlanmış bu müraciət 105 ildən sonra da bəşəridir - günümüzdə də yaşadılır.

Bütün böyük quruculuq işləri müvafiq qanunların, direktivlərin qəbul olunmasından başlayır. Aparılacaq quruculuq işləri bu qanunlarla nizamlanır, bu direktivlərlə tənzimlənir. Hökumət də ordu quruculuğunu daha da sürətlə aparmaq, təkmilləşdirmək, daha da operativləşdirmək üçün bir-birinin ardınca qərarlar, qanunlar qəbul edir. Qəbul olunmuş bu qanunlar "Azərbaycan"ın səhifələrində "Azərbaycan Hökumətinin Qərarlarından" rubrikası ilə dərc olunur. Qəbul olunmuş qərarlar əsasən ordu quruculuğunun möhkəmləndirilməsini və nizamlanmasını təmin etmək üçündür.

Hökumətin 15 iyul 1918-ci il tarixli qərarına diqqət yetirəndə görürük ki, dövlət tərəfindən hərbi hissələrin və hərbçilərə evlərin tikintisi üçün ərazilər ayrılır, zabit və əsgərlərə diqqət və qayğı göstərilir. Önəmli qərarlardan biri də əsgərlərin orduya çağırılmasını təmin edən qərardır. Həmin qərar bütün təfsilat və izahları ilə qəzetin səhifələrində dərc olunub.

"Azərbaycan"ın 16 noyabr 1918-ci il 41-ci nömrəsində Hərbiyyə Nəzarəti müfəttişi Səməd bəy Mehmandarovun məqaləsi də ordu quruculuğu istiqamətində gedən və gedəcək bütün prosesləri aydın şəkildə göstərir. S.Mehmandarov məqaləsində yazır: *"Azərbaycan Hökumətinin qərarı ilə Hərbiyyə Nəzarəti müştəşarlığına təyin buyuruldum. Bu gündən etibarən işə başladım... Qitaat (hərbi hissələr) komandalarının, əfradın (şəxsi heyətin), təlim və tərbiyəsi, bilxassə əfradi zabitanda (zabit heyətində), qanuna itaət, hüquqa hörmət, maduna (aşağı rütbəlilərə) məhəbbət və hüsni-müamilə (yaxşı rəftar), vəzifəsini sevmək və vəfadarlıq kimi xassələrin hüsulu (hasil olması)" xüsusunda nəzəri diqqətlərini cəlb edirəm. Bu sürətlə yetişəcək, ordumuz istiqbala (gələcəyə), eyi hazırlanmış və Hökumətimizin muşkulatla tədarük və fədakaranə ordu üçün sərf etdiyi para və hümmətə qarşı borclarını ödəmiş olar. Mən bu gündən etibarən ordunun hər dürlü ehtiyacını təmin xüsusunda əlimdən gəldiyi qədər çalışacağam".*

General Səməd bəy Mehmandarovun proqram xarakterli yazısını oxuyanda ordu quruculuğu istiqamətində həyata keçiriləcək islahatların ardıcıllığını görürük. Onun ürəyindən qopub gələn sözlərdən vətənpərvərlik hissləri süzülür. 1918-ci ildə ordumuz bax belə vətənpərvər insanların, təcrübəli hərbçilərin hünəri və cəsarəti sayəsində quruldu. Qısa müddət ərzində gücünü, qüdrətini artıran ordumuz bir müddətdən sonra Qarabağı erməni işğalçılarından azad etdi.

Mütəmadi olaraq "Azərbaycan"ın səhifələrində ordu quruculuğunu, döyüşən zabit və əsgərləri, vətənpərvərliyi və qəhrəmanlığı vəsf edən məqalə, hekayə və şeirlər də dərc olunur. Qəzetin 22 oktyabr, 8 noyabr 1918 və 3 yanvar 1919-cu il tarixli, həmçinin başqa nömrələrində belə dəyərli şeir, məqalə və hekayələr oxuyuruq.

"Ey əsgər" şeirində şair doğma ordumuzun zabit və əsgərlərinin qəhrəmanlığını, igidliyini böyük şövqlə tərənnüm edir.

Baş əydi, bax, toplarının səsinə
Yad ellərin ildırımı, şimşəyi.
Ulğun kimi qurumağa başladı
Səni görən cəlladların biləyi.
Yürü-yürü, batan günün izinə,
Gülümsəyir batan günəş izinə!

"Əsgərlik haqqında" məqalədəki fikirlər də olduqca düşündürücüdür. Müəllif min bir məna dolu sözlərlə əsgərliyin nə demək olduğunu oxuculara izah edir, onları hərbi xidmətə ruhlandırır: *"İnsanın təbiəti ülvitələbdir (ülviliyi tələb edir); artıqlıq və yüksəklik sevəndir. Əsgərlik dünya və axirət fəzilətinin cəmidir. Dünyada əsgərin hüququna bir kimsə təcavüz edəmməz. Əsgərə şücaət kimi yaxşı sifət ariz (məxsus) olub, qorxaqlıq kimi xəbis sifətlərdən ari (uzaq) olur. Əsgərin gözü açıq, qəlbi saf olur. Çünki vilayətləri seyr edir. Hər bir vilayətdən və o vilayətin adamlarından çox şeylər dərk edir, ibrət götürür, səyahət edir..."*

Qəzetin 14 yanvar 1919-cu il tarixli 83-cü nömrəsində "Əsgərlik vəzifəmizdir" məqaləsi mövzu baxımından seçilən yazıdır, seçilən nümunədir. Məqalə ona görə dəyərlidir ki, aradan bir əsrdən çox müddət keçsə də, hələ də həmin sözlər, həmin fikirlər öz qüvvəsini qoruyub saxlayır. İfadə etdiyi mənanı itirmir. Sanki məqalə bu günümüz üçün, bu günümüzün gəncləri üçün yazılıb: *"Bu vəzifə, bugünkü gündə biz azəri türklərinin ən vacib vəzifələrimizdən birisidir. Bu vaciblik həm o dərəcə mühümdür ki, bunun əhəmiyyətini son sənələrin sədamatına (zərbələrinə), düçar olmuş bir azəri türkləri heç bir cəhətlə yüngül ədd (hesab) edəməyiz. Zira, əsgərsizliyin, əsgər olmamaqlığın acılığını son hadisələr bizə daddırdı. ...İndiki halda başqa millətlər kimi biz azəri türkləri də, müstəqil cümhuriyyət qurmuşuz, müstəqil məmləkət təşkil etmişiz. Cümhuriyyətimizin mühafizəsini öhdəmizə almazsaq, məmləkətimizin qarovulunu çəkməzsək, bu necə istiqbal olar? Bu nasıl məmləkətdarlıq (ölkə saxlamaq) olar? Əsgər olmadığımız və əsgərsiz olduğumuz üçün idi ki, Tiflisin Seymi tərəfindən hər kəsə silah paylandı da, biz silahsız qaldıq. Bundan dolayı öz qüvvəmizlə silah ələ gətirmək üçün nə qədər fəlakətə uğradıq. Əsgərsiz olduğumuz və əsgər olmadığımız üçün idi ki, Bakıda, Şamaxıda, İrəvanda, Qubada bir taqım nizami, yəni əsgərlik görmüş quldurların saldırışları qabağında dayanmayıb dağlara, səhralara qaçdıq. "*

"Əsgərlik vəzifəmizdir" məqaləsi o qədər maraqlıdır ki, onu bütünlüklə bu yazıya köçürmək, bu günümüzün və sabahımızın gənclərinə çatdırmaq istərdik.

"Azərbaycan" qəzetinin, demək olar ki, bütün səhifələrində ordu ilə, ordu quruculuğu ilə bağlı yazılar dərc olunub. Qəzet sanki bu yazıları ilə bu prosesə kömək etməyə çalışır. Silahlı Qüvvələrdən bəhs edən yazıların ruhunda, ovqatında ötən müddət ərzində ordunun qurulduğu, möhkəmləndiyi açıq-aydın hiss olunur.

Təəssüflər olsun ki, "Azərbaycan" qəzetinin ömrü də Cümhuriyyətimizin ömrü kimi qısa oldu. Bu qısa müddət ərzində qəzet dövrünün tarixini yazmağı, onu gələcək nəsillərə ərməğan etməyi bacardı. Həmin dövrdə baş verən hadisələri öyrənmək və dəqiqləşdirmək baxımından qəzet indi ən etibarlı mənbədir.

Bu gün Azərbaycan Respublikası Milli Məclisinin orqanı olan "Azərbaycan" qəzeti sələfinin yarımçıq qalmış yaradıcılıq yolunu uğurla davam etdirərək səhifələrində başqa mövzularla yanaşı, ordu quruculuğundan da bir-birindən dəyərli və maraqlı materiallar dərc edir. Böyüməkdə olan nəsillərə vətənpərvərlik və qəhrəmanlıq hissləri aşılayır. Sabahımızın zabit və əsgərlərini daha bacarıqlı, daha peşəkar görmək istəyir. Yolların uğurlu, işlərin avand olsun, 105 yaşlı "Azərbaycan!"

Vahid MƏHƏRRƏMOV,
araşdırmaçı jurnalist